# Xalqın əbədi ehtiram ifadəsi

***Ulu öndər Heydər Əliyevin ikinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçilməsindən 26 il ötür. Belə ki, 1998-ci il oktyabrın 11-də keçirilən səsvermədə 3 milyon 358 min 465 seçicinin 76,11 faizi Heydər Əliyevə səs verib. Bu seçkilər yalnız bir liderin yenidən hakimiyyətə gəlməsi deyil, eyni zamanda Azərbaycan dövlətçiliyinin və müasir inkişaf yolunun təsdiqi idi.***

Buna görə də deyə bilərik ki, əgər 1993-cü il seçkiləri Azərbaycan dövlətçiliyinin ciddi sınaq mərhələsi idisə, 1998-ci il seçkiləri artıq formalaşan dövlətimizin imtahanı sayılırdı. Çünki 1993-cü ildə siyasi gərginlik, iqtisadi çətinliklər və müharibə şəraiti xalqı böyük bir sınaq qarşısında qoymuşdu. Amma Heydər Əliyev ölkəni qarışıqlıqdan və xaosdan xilas edərək müstəqil Azərbaycanın bərqərar olmasına nail oldu. Bu da onu sübut edir ki, Azərbaycan xalqının Heydər Əliyevə ikinci dəfə böyük etimad göstərməsi səbəbsiz deyildi. Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan bir çox təhlükələr qarşısında qalanda məhz Heydər Əliyevin rəhbərliyə qayıdışı ölkədə köklü dəyişikliklərin baş verməsinə səbəb oldu. Dahi liderin idarəçilik dövrü ərzində daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu doğma yurdu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxardı. Ulu öndərin hakimiyyətə gəlişi ilə ölkə nəfəs aldı, xalqda ümid hissi yarandı. Onun atdığı addımlar Azərbaycanın beynəlxalq aləmdəki mövqeyini gücləndirdi. Heydər Əliyevin birinci prezidentliyi dövründə enerji sahəsində böyük əhəmiyyətə sahib "Əsrin müqaviləsi" imzalandı, beynəlxalq təşkilatlara inteqrasiya təmin edildi, dünyanın aparıcı dövlətləri ilə münasibətlər tərəfdaşlıq və strateji müttəfiqlik səviyyəsinə çatdırıldı. Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi şərti ilə həllinin zəruriliyi də beynəlxalq təşkilatlar səviyyəsində ilk dəfə 1996-cı ildə ATƏT-in Lissabon şəhərində keçirilən sammitdə etiraf edildi. Daxili siyasətdə də ölkədə hüquq islahatları həmin dövrdən başladı, 1995-ci ildə müstəqil dövlətimizin ilk Konstitusiyası qəbul edildi, yeni parlament formalaşdı.

1998-ci ildə keçirilən seçkilər isə artıq ölkənin siyasi sisteminin və cəmiyyətinin formalaşmasını nümayiş etdirirdi. Məhz bu səsvermələrdə qədirbilən xalqımız ümummilli liderə, onun möhkəm siyasi iradəsinə və yüksək nüfuzuna, idarəçilik istedadına olan dərin inamına etimadını bəyan etdi. Çünki Heydər Əliyev yalnız bir siyasi lider deyildi, eyni zamanda xalqın etimadını qazanan, milli birliyimizi simvolizə edən dahi şəxsiyyət idi. Dahi liderin şəxsiyyəti, iqtisadi islahatları və beynəlxalq əməkdaşlığa yönəlmiş siyasəti ölkənin müstəqilliyinin qorunması və inkişafının təmin olunmasında əvəzsiz rol oynadı. Bu mənada deyə bilərik ki, 1998-ci il seçkilərinin nəticəsində Azərbaycan Heydər Əliyevin liderliyi altında daha geniş perspektivlərə doğru irəliləyərək müasir dövrün tələblərinə cavab verən bir dövlətə çevrildi.

Ulu öndərin ikinci prezidentlik dövründə qazanılmış iqtisadi nailiyyətlər xüsusilə vurğulanmalıdır. Belə ki, 1997-2002-ci illərdə ölkəmizdə sənaye məhsulları istehsalı 23,6 faiz artdı. Hasilat sənayesi ilə yanaşı, qeyri-neft sektoru da inkişaf etdi. Emal sənayesi sahələrində məhsul istehsalı 24 faiz, o cümlədən yeyinti sənayesində 22 faiz artdı. Sənayenin inkişafı ilə yanaşı, ümummilli lider respublikada kənd təsərrüfatının inkişaf etdirilməsinə də xüsusi diqqət yetirirdi. Məhz bu diqqətin nəticəsində respublikada 40-dan çox hüquqi-normativ sənəd qəbul edildi və onların əsasında aparılan islahatların yekunu olaraq ölkədə 2600-dən çox kəndli-fermer təsərrüfatı yarandı. İdxal-ixrac əməliyyatlarının bazar iqtisadiyyatının tələblərinə uyğun qurulması nəticəsində ölkəmizin beynəlxalq əlaqələri də genişləndi. İqtisadiyyatda aparılan islahatlar ölkənin maliyyə vəziyyətinin yaxşılaşmasını, dövlət büdcəsinin gəlirlərinin artmasını təmin etdi. Ulu Öndər respublikamıza rəhbərlik etdiyi illər ərzində böyük iqtisadi və enerji potensialı yaradılmasına nail oldu, ölkəmizin müstəqil yaşaması üçün möhkəm zəmin yaratdı.

Bunların təməlində isə "Xalq - Heydər, Heydər - Xalq" birliyi dayanırdı. Ümummilli lider xalqının taleyini öz taleyi ilə birləşdirərək millətinə bir liderdən daha çox, dost, hətta ata oldu. Liderimiz hər bir vətəndaşın qəlbində dərin iz qoydu. Xalq dahi liderin rəhbərliyi altında öz kimliyini dərk etməyə başladı. "Xalq - Heydər, Heydər - Xalq" birliyi hələ də bizə ilham verir. Azərbaycanın hər bir vətəndaşı bu birlikdə özünü tapır, yeni zirvələrə doğru irəliləyir.

**Jalə QASIMZADƏ,**
**"Respublika".**